# Azərbaycan qadınları bütün dünyaya örnəkdir

Hər birimizə məlumdur ki, Azərbaycan qadınları hələ qədim dövrlərdən dövlətin istər ictimai-siyasi həyatında, istər mədəni, istər iqtisadi, istərsə də digər sahələrdə çox mühüm və əhəmiyyətli rol oynayıblar. Tarixi faktlardan bəllidir ki, qadınlarımız ayrı-ayrı dövrlərində öz şücaəti, ağlı, zəkası, cəsurluğu və qəhrəmanlığı ilə təkcə ailədə deyil, ictimaiyyətdə də özlərinə böyük ehtiram və dərin rəğbət qazandırıblar. Bəzi qadınlarımız hətta yaşadıqları dövlətdə və onun hüdudlarından kənarda ictimai-siyasi xadim, qəhrəman döyüşçü və bacarıqlı sərkərdə kimi də ad-san qazanıblar. Massaget hökmdarı Tomris Xatun, XII-XIII əsrlərdə yaşayan Təbriz hökmdarı Zahidə Xatun, onun qızı Cəlaliyyə, nəvəsi, Ruin Dec qalasının sahibəsi Silafə, Cahan Pəhlivanın arvadı Quteyba Xatun, Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin arvadı olan Möminə Xatun, Sultan Toğrulun qızı, Atabəylər dövlətinin son hökmdarı olan Müzəffərəddin Özbəyin arvadı, XIII əsrin əvvəlində yaşayan Mehrican Xatun, Azərbaycanın Qaraqoyunlu dövlətinin hökmdarı Qara Yusifin arvadı Ələykə Könüldaş, Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin anası Sara Xatun və digərləri xalq və dövlət qarşısında əvəzedilməz, misilsiz və danılmaz xidmətlərinə görə əsrlərdir ki, böyük şəxsiyyət kimi anılır və yad edilir. Adlarını qəhrəmanlıq salnamələrinə yazdıran qadınlarımız haqqında bəzi məlumatları da oxucularımızın diqqətinə çatdırmaq istərdik. Belə ki, Türk dünyasının igidi Koroğlunun Nigarı onun həm xanımı, həm silahdaşı olub. 1776-cı ildə Dərbənd şəhərini idarə etmək Quba xanı Fətəli xanın arvadı Tuti Bikəyə tapşırılıb. O, ərinin döyüşdə öldürülməsi barədə şayiələrə inanmayaraq şəhəri sonadək müdafiə edib, 9 ay düşməni Dərbəndə yaxın buraxmayıb. Qaçaq Nəbinin ömür-gün yoldaşı Həcər əlində silah 25 ildən artıq at belində zalımlara qarşı döyüşüb.

Qəhrəman, igid, cəsur və qorxmaz qadınlarımızdan biri də Qaçaq Süleyman adı ilə 200-dən çox qaçağa rəhbərlik edən Gülsüm xanımdır. İosif Stalin 7 ay onun dəstəsində döyüşüb. Qaçaq Kərəmin dostu olub. Sovet hökuməti qurulanda silahı yerə qoyub.

Azərbaycan qadınları həmçinin qeyri-adi bacarıqları və fitri istedadları ilə də digərlərindən fərqlənməyi, hər kəsin diqqət mərkəzində olmağı bacarıblar. Məsələn, elə götürək Azərbaycanın ilk qadın təyyarəçisi Leyla Məmmədbəyovanı. O, 24 yaşında ikən, yəni 17 mart 1933-cü ildə Moskva Tuşino aerodromunda ilk paraşüt tullanışında iştirak edib və SSRİ məkanında qadın paraşütçüləri arasında ikinci yeri tutub. Şöhrəti tezliklə bütün ölkəyə yayılan Leyla Məmmədbəyovanın şəkli Moskvada nəşr olunan "Oqonyok" jurnalının üz qabığında verilib, şəklin altında isə bu sözlər yazılmışdı: "Türk qadını Şərqin ilk təyyarəçi qadınıdır".

Adını qürurla andığımız azərbaycanlı qadınlardan biri də 28 yaşında yerli sənaye nazirinin müavini, bir il sonra isə respublikanın məişət xidməti və yerli təsərrüfat naziri seçilməklə SSRİ tarixinin ən gənc qadın naziri adını qazanan Nəbibə Həsənovadır.

Ümumiyyətlə, Azərbaycan qadınlarının ayrı-ayrı sahələrdə qazandıqları çoxsaylı uğurlar təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da aktual mövzulardan biri kimi həmişə müzakirə olunub. Hətta qadınlarımız digər ölkələrin qadınlarına nümunə göstərilib. Məsələn, Amerikanın "Foreign Policy News" xəbər portalı siyasi icmalçı Covanni Visente Romeronun "Azərbaycan qadınları müsəlman ölkələrinə və bütün dünyaya örnəkdir" sərlövhəli məqaləsini yayıb. Müəllifin bu məqaləsi Niderlandın nüfuzlu "Diplomat Magazine" jurnalında da dərc edilib. Müəllif yazır ki, 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin mütərəqqi hökuməti qadınların liberal və dünyəvi cəmiyyətin tamhüquqlu üzvü olması üçün hər cür şərait yaratmışdı. Tanınmış polyak-amerikan tarixçisi Tadeuş Svetoxovski "Rusiya Azərbaycanı (1905-1920)" kitabında yazırdı ki, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının qəbul etdiyi Müəssislər Məclisi haqqında Qanun etnik azlıqların və siyasi qrupların proporsional təmsilçiliyini və ümumi seçki hüququnu nəzərə almaqla, faktiki olaraq Azərbaycanı müsəlman dünyasında qadınlara siyasi hüquqlar verən ilk dövlətə çevirdi. Ekspert yazır ki, beləliklə, Azərbaycan qadınları Avropanın bir çox inkişaf etmiş ölkələrində və Amerika Birləşmiş Ştatlarında olan həmcinslərindən daha əvvəl seçki hüququ əldə etdilər. Məsələn, ABŞ yalnız 1920-ci ildə - ölkə Konstitusiyasına 19-cu düzəlişi qəbul etməklə qadınlara analoji hüquqi verdi. 1918-ci ildən etibarən zərif cinsin nümayəndələri Azərbaycanda tərəqqi simvolu olub və bu ənənə indi də davam edir. Romero qeyd edir ki, 2000-ci ilin martında Azərbaycan Prezidenti Heydər Əliyev "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman imzalayıb. Bu sənəddə qadınların hökumətdə proporsional şəkildə, həmçinin bərabərlik əsasında biznes və iqtisadiyyatda iştirakının təmin edilməsi tapşırılıb. Romero vurğulayır ki, yeni qanun Azərbaycan cəmiyyətində qadınların rolunun artırılması sahəsində tərəqqini təmin etdi. Hazırda Nazirlər Kabinetinin üzvləri arasında zərif cinsin nümayəndəsi də var, 125 deputatdan ibarət olan parlamentin isə 16 faizini qadınlar təşkil edir. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə BMT Komitəsinin hesabatına görə, 2014-cü ildə qadınlar arasında işsizliyin səviyyəsi əvvəlki illərdəki 49 faizdən 5,9 faizə düşüb. 2015-ci ilin əvvəlində Azərbaycanda sahibkarların 18 faizini qadınlar təşkil edib. Azərbaycan qadınları ölkənin Silahlı Qüvvələrində də xidmət edirlər. Azərbaycanda qadınların uğurlarından bəhs edən Romero istisna etmir ki, ölkədəki zərif cinsin nümayəndələri üçün ilham mənbəyi birinci xanım Mehriban Əliyevanın nümunəsidir. UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri olan Mehriban xanım Əliyeva 2004-cü ildə təsis edilmiş Heydər Əliyev Fondunun prezidenti kimi cəmiyyətdə mədəni və iqtisadi inkişafa, xüsusən gənc qadınların rolunun artırılmasına böyük töhfə verib. 2017-ci ildə Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Hicran Hüseynova isə müsahibələrindən birində bildirib ki, ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması məhz ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. O, istər sovet hakimiyyəti, istərsə də müstəqillik dövründə milli qadın hərəkatının formalaşması, genişlənərək institutlaşması üçün böyük işlər görmüşdür: "Ulu öndər qadınların rəhbər vəzifələrdə irəli çəkilməsinə xüsusi diqqət verirdi. Qadınlarla bağlı heç bir yığıncaq, iclas, qurultay nəzərindən kənarda qalmırdı. Müstəqilliyimizin ən ağır zamanında belə "Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. 1998-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Xüsusilə, qeyd etmək lazımdır ki, MDB ölkələri içərisində yeganə bizim ölkəmizdə belə bir dövlət qurumu var. Zaman keçdikcə, ölkədə ailə, qadın və uşaq məsələləri kompleks yanaşma tələb etməyə başladı. Və bu zərurət yeni Komitənin yaranmasına səbəb oldu. Möhtərəm Prezident İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı.

Hazırda cəmiyyətin ictimai-siyasi həyatında və idarəetmə sistemində fəal mövqe tutan qadınlar, müstəqil Azərbaycanın daha da inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə əzmlə çalışırlar. Bu fəallıq Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən - qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir. Bu gün müstəqil Azərbaycan qadınları parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə, ölkə iqtisadiyyatının inkişafında sahibkar kimi biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər rəhbər vəzifələrdə təmsil olunurlar.

Dünyanın bütün məşhur şəxsləri "Hər bir uğur qazanmış kişinin arxasında bir qadın dayanır" fikrini təsdiq edir. Fikrimcə, hər bir uğur qazanmış qadının arxasında ona hərtərəfli dəstək olan kişi dayanır. Və təkcə kişi deyil, bütövlükdə ailə, mənəvi dəyərlərə bağlılıq dayanır. Biz qadınlarımızı hansı obrazda görmək istəyirik? Özünə inamlı, güclü, professional, eyni zamanda, öz ocağının qoruyucusu kimi. Belə bir balans və harmoniya mümkündür. Bu gün bizim qadınlarımız arasında belə nümunələr var. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi də cəmiyyətdə qadın iştirakçılığına, bütövlükdə qadına verdiyi önəmin bariz göstəricisidir. Respublikanın Birinci vitse-prezidenti Mehriban xanım, ailəsinə göstərdiyi qayğı, eyni zamanda, ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına həmişə örnəkdir. Biz çox fəxr edirik ki, ilk Avropa və IV İslam Həmrəyliyi Oyunlarına birinci xanımımız Təşkilat Komitəsinə rəhbərlik etdi, bu da bir daha dünyaya Azərbaycan qadınının yüksək intellektini və peşəkarlığını göstərmiş oldu. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağı artmışdır. Adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik məzmunu ilə assosiasiya olunan Mehriban xanım Əliyeva sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə çoxsaylı beynəlxalq mükafatlara layiq görülərək, dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır. Mehriban xanım ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü fəal işlərlə yanaşı, gender problemlərinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir. Bütün bunlar Mehriban xanım Əliyevanın yüksək siyasi potensiala malik olduğunu təsdiqləyir. Və eyni zamanda, Azərbaycan qadınının modern tələblərə uyğun obrazını nümayiş etdirir. Bu gün müasir qadın hərəkatının yeni prioritetinin müəyyən edilməsi Mehriban xanımın çağırışında öz əksini tapıb: "Biz bu gün bərabər hüquqlardan bərabər imkanlara keçid siyasətini gerçəkləşdiririk. Mən bu yolda bütün Azərbaycan qadınlarını daha fəal olmağa, öz potensialını genişləndirməyə, cəmiyyətdə öz sözünü deməyə çağırıram". Bu, Mehriban xanımın qadın hüquqlarının qorunması istiqamətində irəli sürdüyü yeni tendensiyanın əsasıdır.

Hicran Hüseynova daha sonra bildirib ki, qadınlarımız hər zaman istər dövlətimizin inkişafında, xalqımıza məxsus dəyərlər sisteminin yaşadılmasında, istərsə də torpaqlarımızın müdafiəsində əhəmiyyətli töhfələrini verəcəkdir.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*Məqalə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Azərbaycan qadını: tarixilik və müasirlik" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.*